UOT 165 Səh. (8-17)
DOİ: https://doi.org/10.59849/2219-7370.2024.30.8

# KOLLEKTİV YADDAŞ, İDENTİKLİK VƏ ALİM ETİKASI EPİSTEMOLOGİYA KONTEKSTİNDƏ

**Məmmədzadə İlham.**
F.e.d., prof., AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru
e-mail: ilham_mamedzade@mail.ru

**Xülasə**

Fikrimizcə, tarixi-mədəni epistemologiyaya aid əsərlərdə kollektiv yaddaş və alim etikası mövzusu ən aktual mövzulardan biri olmuşdur. İlk baxışdan elə düşünmək olardı ki, süni intellekt və rəqəmsal hafizənin inkişafı əsrində tədqiqatçıların bu məsələyə marağı azalmalı idi, lakin bunun əksi baş verdi. Yeri gəlmişkən, həmin mövzu Qərb fəlsəfəsində, bizcə, artıq XX əsrdə, M. Haydegger, A.Berqson, M.Halbvaks, M.Fuco kimi filosofların ona müraciət etdiyi zaman aktual idi və bu gün də alimlərin diqqətini cəlb edir. Məsələn, P.Hattonun "Tarix yaddaş sənəti kimi" və A.Meqillin "Tarixi epistemologiya" kitablarını qeyd etmək olar. Həmin marağı totalitar ideologiyaların apogey dövrü şüurla manipulyasiya və bəzi Avropa mədəniyyətləri üçün kollektiv yaddaşın əhəmiyyəti və ya digər qeyri-Avropa cəmiyyətlərinin müstəmləkə keçmişi və başqalarına çatmaq cəhdiylə bağlı inkişafı ilə izah etmək təbii görünə bilərdi. Fikrimizcə, məsələ yalnız bu izahlarda deyil, həm də kollektiv hafizənin, mentallığın həqiqətən də yaddaşa, fərdi hafizəyə, o cümlədən, insanın seçiminin, alim etikasının və s. yaddaşa təsirinə yanaşma və onların tədqiqi metodu ilə son dərəcə özünəməxsus, birmənalı olmayan münasibətlərdə bulunan mühüm araşdırma obyekti olmasındadır.
**Açar sözlər:** apogey, kimlik, alim etikası, kollektiv yaddaş, süni intillekt, epsitemologiya

# COLLECTIVE MEMORY, IDENTITY AND SCIENTIST ETHICS IN THE CONTEXT OF EPISTEMOLOGY

**Mammadzada Ilham.**
DSc, professor, Director of the Institute of Philosophy and Sociology of ANAS
e-mail: ilham_mamedzade@mail.ru

**Summary**

In our opinion, the topic of collective memory, identity and ethics of a scientist has become one of the most relevant with regard to historical and cultural epistemology. It would seem that in the era of the development of artificial intelligence and digital memory, this issue might have lost interest on the part of researchers, but the opposite happened. At the same time, it was relevant in Western philosophy, perhaps, in the twentieth century, when such philosophers as M. Heidegger, A. Bergson, M. Halbwachs, M. Foucault turned to it, and still attracts the attention of scientists. Let us note, for instance, the book by P. Hutton "History as the Art of Memory" and A. Megill "Historical Epistemology". Naturally, this interest could be explained by the heyday of totalitarian ideologies, the manipulation of consciousness and the significance of collective memory for some European cultures or the colonial past and the catching-up development of other non-European communities. But, we believe that the point is not only in these explanations, but also in the fact that collective memory, mentality and in fact an important object of study, which has a very peculiar, ambiguous

relationship with what is called the method and approach to memory, individual memory including the influence of a person's choice, the ethics of a scientist on memory, etc.

**Keywords:** apogee, identification, scientist ethics, collective memory, artificial intelligence, epistemology

## КОЛЛЕКТИВНАЯ ПАМЯТЬ, ИДЕНТИЧНОСТЬ И УЧЕНАЯ ЭТИКА В КОНТЕКСТЕ ЭПИСТЕМОЛОГИИ

**Мамедзаде Ильгам.**
д.ф.н., проф., директор Института Философии и Социологии НАНА
e-mail: ilham_mamedzade@mail.ru

**Аннотация**

Тема коллективной памяти, идентичности и этики ученого, стала одной из самых актуальных в историко-культурной эпистемологии. Казалось бы, в эпоху развития искусственного интеллекта и цифровой памяти вопрос этот мог потерять интерес со стороны исследователей, но получилось наоборот. В западной философии актуальной она была, пожалуй, уже в XX веке, когда такие философы как М.Хайдеггер, А.Бергсон, М.Хальбвакс, М. Фуко обращались к ней. Надо отметить, что привлекает она внимание ученых до сих пор (книги П.Хаттона «История как искусство памяти», А.Мегилла «Историческая эпистемология»). Естественно было бы этот интерес объяснить периодом расцвета тоталитарных идеологий, манипулированием, сознанием и значимостью для некоторых европейских культур коллективной памяти, либо колониальным прошлым и догоняющим развитием других неевропейских общностей. Вместе с тем, мы считаем, что дело не только в этих объяснениях, но и в том, что коллективная память, ментальность и на самом деле важные объекты исследования, имеющие весьма своеобразные, неоднозначные отношения.

**Ключевые слова:** апогей, идентичность, этика ученого, коллективная память, искусственный интеллект, эпистемология

## Giriş

Müasir müharibələrdə kollektiv yaddaş xüsusi yer tutumuşdur. Bir tərəfin onun kollektiv şüurunu indi də məst edən minillik keçmişin əsatirlərini zor və təcavüz yolu ilə gerçəkləşdirməyə çalışdığı yenicə həll etdiymiz Ermənistan-Azərbaycan münaqişəsini xatırlamamaq olmaz. Bu zaman siyasətçilər, görünür, bəzi səbəblərdən unudurlar ki, əsatirlər heç də fəaliyyətə, qisas almağa, ədalətin bərpasına və s. yönəlişlik deyil, yalnız fəlsəfi, məntiqi və hər hansı digər elmi, ədəbi və estetik təhlil tələb edən istiarədir. Ukrayna ilə Rusiya arasındakı münaqişə də fərqli hafizə toqquşmasının bütün çalarlarını ehtiva edir, hərçəndki, bizim halda da olduğu kimi, heç də hər şey yaddaşla bağlı deyil. Həmin münaqişələri postsovet məkanı, başqalarına çatmaq cəhdi ilə səciyyələnən inkişaf növü, suverenliyi gec qazanma, qloballaşmağa əksüləməl ilə əlaqələndirmək olardı. Fəqət ABŞ və Aİ-də nələrin baş verdiyinə diqqət yetirsək, F.Fukuyama və S.Hantinqtonun əsərlərini yada salsaq, məsələnin təkcə bizim məkanla bağlı olmadığını etiraf etməli olacağıq. ABŞ-ın apardığı indiki mühari-

bələrdə yaddaş da xüsusi və ya mühüm yer tutur, birqütblü dünya bir tarix və hafizə iddiasında olduğu üçün hamıya bir sivilizasiya, bir tarix və yaddaş sırınır.

Aydındır ki, bu və ya digər toplumun kollektiv yaddaşına müraciət edərkən ilk növbədə, qeyd etmək lazımdır ki, o, fərdi hafizədən fərqlənir, hərçənd əksəriyyət tərəfindən qavranılır və ya qavranıla bilər, elə buna görə də kollektiv yaddaşdır. Daha sonra qeyd etmək gərəkdir ki, kollektiv yaddaş dəyişir və bu təbəddülatlar, bir tərəfdən, kollektiv təcrübə, şüur, ənənələr və miflərlərlə bağlıdır. Fəqət, digər tərəfdən, onun elmlə də, tarixlə də, amma, düşünə biləcəyimiz kimi, təkcə onlarla deyil, həm də yaddaşı tədqiq edənlərlə, onların yanaşmaları, etikası, gəldikləri nəticələri yoxlamağa və müdafiə etməyə, həmçinin kollektiv şüurun alimin fikrini nəzərə almağa nə dərəcədə hazır olduqları ilə əlaqəsi vardır. Burada keçmiş haqqında biliklərin və ya narrativlərin tarixi yaddaşın bir hissəsinə çevirilməsi də əhəmiyyət daşıyır. Məsələn, Birləşmiş Ştatlarda ABŞ-dan əvvəl onların ölkəsində nələrin baş verdiyini xatırlamağı sevmirlər, bəzi Asiya və Avropa ölkələrində isə, keçmiş minillik sanki indi başa çatmış kimi, tarixi narrativ bu günü müəyyən edir. Bu, o deməkdir ki, tarix elm və bilik və ya hekayət ola bilər. Tarixin bu iki növünü bir-birindən çox şey fərqləndirir, amma ilk növbədə, bu – tədqiq edilənə yanaşma metodologiyası, o cümlədən, kollektiv yaddaşa münasibətdir. Həmin münasibətlər alim etikasını da şərtləndirir. Bundan başqa, öz keçmişinə aid əsatirləri kollektiv şüur və yaddaş sifətində qəbul edən və ictimai elmin və o cümlədən, tarixin dəqiq bilik (elm) olmadığını güman edən və buna görə də ona laqeydlik göstərməyi mümkün sayan cəmiyyətlər də vardır. Bu haqda çox əsərlər yazılıb, yeni yazıların arasında D.Y. Nikolaevin "Elmi rasionallıq tiplərinin psixoloji konsepsiyası. 1-ci hissə (4) və İdeal obyektlər və rasionallıq tipləri" (6) adlı məqaləsini qeyd etmək istərdik. Həmin məqalədə D.Y. Nikolayev yazır ki, "...riyaziyyat cansız təbiətdə baş verən hadisələri son dərəcə dəqiq təsvir etməyə və qabaqcadan bildirməyə imkan verir". Даha sonra: "Elmiliyin meyarları kimi araşdırma nəticələrinin ölçülə və və təkrarlana bilənliyi çıxış edir" (6). Fəqət Nikolayevə və onun öz məqaləsində istinad etdiyi simalara müqabil olaraq deyə bilərik ki, bu, heç də riyaziyyatın sosiohumanitar elmlərdə tətbiqinin prinsipial surətdə səmərəsiz olduğu demək deyil. Burada riyaziyyat fəlsəfə, epistemologiya və s. ilə birlikdə fərqli şəkildə istifadə olunmalıdır. Həm də ki, idrak nəzəriyyəsi olaraq fəlsəfə ondan nəinki bu, digər məsələlərdə də istifadə olunmasını öyrənmək üçün müəyyən bir yol keçməlidir. Dəqiq və qeyri-dəqiq elmlər arasında fərqlər çoxdur, fəqət bu, ictimai elmlərin, ilk növbədə, özünün yəqin ki, nisbi meyarları, nisbi həqiqəti (səlis və qeyri-səlis məntiqi) olan fəlsəfənin bir növ obyektivlik və həqiqiliyə yönəldiyini danmaq üçün vəsilə deyil. Bu haqda biz A. Büniyatovla həmmüəllif olduğumuz "Milliliyin, milli özünüdərkin qeyri-səlis məntiq kontekstində epistemoloji xususiyyətləri" kitabımızda yazmışıq (3).

### *Tarixi-mədəni epistemologiya və kollektiv yaddaş*

Fəlsəfədə kollektiv yaddaşa maraq göstərilməsinin öz öncə tarixi vardır. Haydegger zənn edirdi ki, hafizəyə maraq ontologiya ilə, varlıq haqqında məsələ ilə bağlıdır. Qloballaşma və postmodern dövründə hafizəni müasirlik əvəz edir və bir çox insanlar üçün keçmiş artıq maraq kəsb etmir. Bodriyar keçmişi indidə olan izlər hesab edirdi. Amma indi, əksinə, həm keçmişdə olmuş, həm hazırda olan, həm də gələcəkdə olacaq şeylər də maraq kəsb edir. Başqa sözlə, keçmişi, indini və gələcəyi necə öyrənmək gərəkdir, bu halda alimin obyektə münasibəti necə olmalıdır, bu zaman obyektə münasibət nə dərəcədə oxşar və fərqli olur. Bu sualları aydınlaşdırmaq təkcə tədqiqatın məntiqini dərk etmək deyil, həm də onun dəyişmə anını, nisbiliyini anlamaq deməkdir. Burada yalnız tədqiqat obyekti deyil, həm də alimin yanaşması və öz yanaşmasının, metodunun, məntiqinin məhdudiyyətini başa düşməsi əhəmiyyət kəsb edir. Həmin məsələləri görkəmli rus filosofları V.M.Rozin, Q.P.Şedrovitski, V.S.Şvıryov və eləcə də məşhur fransız filosofları R.Aron, J.Delöz araşdırmışlar. Məsələn, V.M.Rozin, Platon və Aristotel, De-

kart və F.Bekondan tutmuş müasirlərimizin məntiq və metoduna qədər mövcud metodologiya və məntiq məsələlərini araşdıraraq, həm metodların, təfəkkür və məntiqin nə ilə fərqləndiyini də, həm də onların arasında həm keçmişə, həm də indiyə tətbiqən "kreativ" və konseptual təfəkkür və münasibəti qeyd etməyi lazım bilir (8).

Fikrimizcə, yaddaş bu gün və gələcəklə, kollektiv yaddaş isə həm identikliklə, həm də alim əxlaqı ilə bağlı olan keçmişdir. O, bəzən fəaliyyət üçün təlimata çevirilir. Bu səbəbdən yaxın keçmişdə yazıldığı kimi, artıq "yaddaş hərbləri" deyil, dünyanın, hakimiyyətin yenidən bölüşdürülməsi uğrunda əsl müharibələr aparılır. Buna görə də, o, oxucunun keçmiş haqda təsəvvürlərini dərinləşdirmək, genişləndirmək məqsədi ilə tarixi ölçüdə tədqiq edilə bilər və bu kontekstdə keçmişin bu və ya digər dövrü barədə müasir biliklərimiz daha dolğun olur. Fəqət keçmişə başqa bir yanaşma da vardır: bu zaman müasir müəlliflərin məhz bu konkret keçmişə müraciət etməsinin səbəbləri nəzərdən keçirilir, burada əsas diqqət keçmişlə, o cümlədən, yalnız müəllifin, alimin şüur və təfəkkürünə deyil, həm də toplumun mentallığı və hətta onun tələbatları ilə maraqlanan indiki zamana yetirilir.

Yaddaş barəsində düşünərkən, təbii ki, biz tarixi və onun çoxlu anlayışlarının olduğunu xatırlayırıq, fəqət bunlardan biri elmdir, özü də bu, tarix deyil, müəyyən bir anlayışın mənalarını və əhəmiyyətini aşkar etməklə məşğul olan və bu kontekstdə kollektiv yaddaş və identiklik məfhumlarından istifadə edən fəlsəfədir,epistemologiyadır. Prinsipcə, tarix elmində də olduğu kimi, lakin onunla çox vaxt böyük ölçüdə inam və daha az dərəcədə bilik kimi qəbul edilən nəsnəni ifadə edir. Başqa sözlə, fəlsəfə, epistemologiya, ilk növbədə, ona əsaslanır ki, yaddaş cəmiyyətin onlara şərik olduğu miflərdən, adət-ənənələrdən, keçmiş haqqında təsəvvürlərdən ibarətdir və buna görə də identiklik yalnız yaddaşa münhəsər edilməməlidir.

Hafizəyə seçicilik xasdır, o, əksər hallarda təfərrüatları unudaraq ən vacib olanı özündə saxlayır, bəzən isə detalları yaddaşda saxlayır və əhəmiyyətli olana etinasızlıq göstərir. Filosoflar kollektiv mentallıq məfhumundan da istifadə edirlər, ona görə də bu anlayışların bir-biri ilə qarşılıqlı bağlılığından danışmaq olar. Burada əsas məsələ bundan ibarətdir: nəyin və nə üçün cəmiyyət tərəfindən qəbul edildiyinin elmi davamlılıq baxımından yoxlamaq lazımdırmı və metodologiya, məntiq və alim etikasının kəsişmə nöqtəsində formalaşan yoxlama mexanizmini işləyib hazırlamaq gərəkdirmi (lazımdır)? Burada tarix, kulturologiya, antropologiya və psixologiyanın qovuşuğunda fənlərarası tədqiqatların aparılmasının zəruri və metodologiya və epistemologiyanın, tarixi bilik nəzəriyyəsinin və s. əhəmiyyətinin dərk edildiyi təqdirdə də mümkün olduğunun etiraf edilməsi öz rolunu oynayır.

Tarix elmində keçmişdə dünyada nələrin baş verdiyi, keçmişin nəyə keçməsinin perspektivləri, gələcəkdə dünyanı nələr gözlədiyi barədə sualların qoyulduğu "böyük tarix" və ya dünya tarixi anlayışından istifadə olunur. Bu, F.Fukuyamanın "tarixin sonu" adlandırdığı sferadır: bu zaman bütün dünyanın tarixin indi ABŞ-dan translyasiya edilən bir variantını qəbul etməli olduğu nəzərdə tutulur, amma burada vaxtilə dünyanı Avropanın idarə etdiyinin, Maarifçilik dövrünün və s. şərhinə dalmayaq. Tarixin sonu isə tarixin artıq başa çatdığı və daha olmayacağı demək deyildi, o, birqütblü dünyanın eyni dəyərlərinin, yaddaşın da eyni təfsirlərinin mövcudluğunu nəzərdə tuturdu, hərçənd bölgənin, şəhərin və kəndin və s. yaddaşınln əleyhinə deyildi. Qeyd edək ki, o zaman xeyli müharibə, mədəniyyət və sivilizasiyaların toqquşması yer almışdı. Yada salaq: Avropanın hökm sürdüyü XX əsrdə iki Dünya müharibəsi baş vermişdi, onların ikincisində isə iki dünya düzəni toqquşdu, belə bir toqquşma təhlükəsi, açıq olmasa da, üstüörtülü şəkildə dünyanı təhdid etdi, əslində isə o zaman da onlar bir tarix və bir tarixi həqiqət uğrunda mübarizə aparırdılar.

Həmin dövrdə filosoflar mütləq həqiqət ideyasına, kollektiv yaddaşın mütləq olduğuna şübhə ilə yanaşmağa başladsılar; ona alternativ kimi, məsələn, unutma ideyası qəbul edildi. Bütün hər şeyi yadda saxlamağın mütləq gərək olması məsələsi birmənalı məsələ deyil, çünki bəzi şəraitlərdə hafizə inkişafa mane də ola bi-

lər, o, bunun yeganə resursu deyil. Daha sonra mədəni ənənə və metodoloji yanaşmaların yaddaş və mədəniyyəti dərk etmək üçün zəruri olduğu dərk edildi. Bu məqalədə marksizmin həmin məsələyə yanaşmalarına toxunmaq istəmirik, yəqin ki, nəzəri cəhətdən onlar maraqlıdır, lakin indi bizim üçün aktuallıq kəsb etmir. Bizim üçün belə bir məqamı vurğulamaq vacibdir: mədəniyyət, tarix və yaddaş bir-biri ilə əlaqəlidir, lakin onlar həm də onların bir-biri ilə necə rabitəli olduğunu, yaddaşın, tarixin keçmişdəki nə isə vacib bir şeyi unudub-unutmadığını yoxlayan epistemologiya ilə, idrak nəzəriyyəsi ilə bağlıdır. Əlbəttə, kollektiv yaddaş əlçatan olmalıdır, zira o, şəxsi hafizəyə nüfuz edir, o, emosionaldır, lakin o, həm də təsdiqlənmiş, məntiqi, yəqin ki, dialektik olmalıdır, çünki başqa xalqların, onların yaddaşı, tarixi və mədəniyyəti əhatəsində yerləşir. Qeyd edək ki, iri dövlətlərin tarixi, yaddaşı və mədəniyyəti (qonşularda da bu cür olur), adətən, onları əhatə edənlərin, onlarla birgə yaşadıqlarının tarix və yaddaşını nəzərə almır, bu isə çox vaxt müharibələrə, dünya sistemlərinin, imperiyaların, ittifaqların süqutuna səbəb olur.

Sonuncu qeyd ona görə vacibdir ki, o, kollektiv yaddaşın mürəkkəb, elmi dərki üçün fəlsəfi-epistemoloji oriyentirin əhəmiyyətini izah edir, yəni, bir tərəfdən, o, kütlə üçün sadə, digər tərəfdən isə mürəkkəb olmalıdır. Bu haqda düşündükdə başa düşəcəyik ki, bu, bir çox ictimai və humanitar fənlər üçün tələbdir, çünki yaddaş təkcə şair və alimlərdən deyil, həm də ayrı-ayrı fərdlərin şəxslərin, "politiyaların" təəssüratlarından, beynəlxalq münasibətlərdən və s. "asılıdır". Ona görə də bu fenomen həm insan cəmiyyətinin spesifik xüsusiyyətlərini, rejimlərin tipini, həm də elmi yanaşmanın tələblərini nəzərə almaqla dərk edilməlidir.

Yaddaş – birgə təcrübədir, şüurda ümumi olandır (mentallıq), yeri gəlmişkən, cəmiyyətin digər üzvləri ilə, həm də qonşularla dinc və ya düşməncəsinə yanaşıyaşama təcrübəsidir. Başqa sözlə, bu, nə və necə baş verdiyi barədə təşəkkül tapmış bir təsəvvürdür. Bu, əlbəttə ki, şübhə altına alına və alınmaya da bilər. Və burada yaddaşla, tarixlə, mədəniyyətlə özünəməxsus əlaqəsinin olduğu milli ideya və ideologiya mövzusu meydana gəlir. Biz bu məsələyə 90-cı illərdə də, sonralar da müraciət etmişik, məsələn, «О философии. Современные подходы, тенденции и перспективы» (Баку, 2011)–"Fəlsəfə haqqında. Müasir yanaşmalar, tendensiyalar və perspektivlər" (Bakı, 2011) əsərimizi xatırlamaq olar, fəqət bu məqaləmizin kontekstində, bizcə, epistemologiya, yaddaş, tarix və mədəniyyət arasındakı əlaqələrə xüsusi diqqət yetirmək gərəkdir. Bu, məsələlərin ən mürəkkəb, lakin öz araşdırılmasını tələb edən düyünüdür. Qeyd lazımdır ki, biz burada bir çox yalnız bizim deyil, başqa filosofların da Qərb dövlətlərinin və elə həmin F. Fukuyamanın təzyiqi altında, məsələn, uzun müddət ideologiya və ideyalar dövrünün bitdiyini iddia edir və bu nəticələrini totalitarizmin tənqidi ilə tamamlayırdılar. Lakin aydındır ki, ideyalar totalitar ola da, lakin olmaya da bilər, cəmiyyətin birləşməsi bütün zamanlarda, xüsusən də müasir dövrümüzdə, sözün müəyyən mənasında zəruridir. Bu kontekstdə F.Fukuyamanın «Идентичность: Стремление к признанию и политика неприятия», М. «Альпина Паблишер», 2019 – "İdentriklik: tanınma səyi və qəbul etməmə siyasəti", M. "Alpina Publisher", 2019, əsərini də qeyd edək: bu kitabda o, əvvəlki əsərlərinin, o cümlədən "Tarixin sonu və sonuncu insan" işinin ideyalarını inlişaf etdirir. Başqa sözlə, onun üçün tarix liberalizm ideyalarının üstünlük təşkil etdiyi xətti proses, identiklik isə bütün digər hallarda dağınıqlıq və fraqmentarlıq deməkdir. Aydındır ki, o, başqa tarix, başqa yaddaş və birləşmə görmək istəmir. Ləyaqət siyasəti haqqında düşünərkən o, yazır ki, "...bizə insan ruhunun daha keyfiyyətli nəzəriyyəsi lazımdır" (1). Bununla razılaşaraq, qeyd edək ki, təkcə ABŞ deyil, bizə və hamıya daha keyfiyyətli kollektiv identiklik fəlsəfəsi və kollektiv yaddaşa eynilə bu cür münasibət lazımdır ki, o, ehkama çevirilməsin.

Azərbaycanda milli ideya məsələsinin aktual olduğuna əsaslanaraq qeyd edək ki, əgər identikliyin formalaşmasında, təşəkkülündə, toplumun birləşməsində, milli və etnik həmrəyliyin müxtəlif formalarının inkişaf prosesində yaranmasında yaddaşın, tarixi-mədə-

ni epistemologiyanın rolu nəzərə alınmasa, bu məsələnin təhlili konseptual ola bilməz. Epistemologiya və onun yaddaşa, bu və ya digər toplumun xatirində qalanlara və unutduqlarına münasibəti fəlsəfi məsələdir və onun təkcə identikliyin təşəkkülündə deyil, tarix və mədəniyyət fəlsəfəsinin formalaşmasında ifadə olunan öz vəzifəsi vardır. Cəmiyətin tarixi-mədəni ənənəsinin formalaşması və ona öyrəşmə qoşulma təlim, müxtəlif ünsiyyət formaları vasitəsi ilə gerçəkləşir, lakin o, həm də alimlər tərəfindən, ilk növbədə, tarixi yaddaş və kollektiv identikliyin necə bitkinləşdiyi, yoxlanıldığı və dəqiqləşdirildiyinə müəyyən epistemoloji yanaşma və münasibət etikası ilə yaradılır. Əlbəttə, mədəniyyət və kollektiv identikliklərin tipologiyası çox genişdir, lakin onların hamısı sabitliyə, dayanıqlığa və müəyyən qədər qapalılığa (təhlükəsizliyə), həmçiin inkişafa meyl edir. Görünür, yaddaş bu meyarlara zidd olmamalıdır.

### *Milli ideya və identikliyimizin perspektivləri*

Azərbaycan Prezidenti İlham Əliyev yerli telekanallara milli ideya mövzusunda müsahibə verib, bunu ardınca seçkilərdən sonra keçirilmiş inauqurasiya mərasimində söylədiyi nitqində milli ideologiya, dəyərlər, süni intellekt və təhsil problemlərinə toxunub, həmin məsələlər onun Münhen konfransında etdiyi çıxışlar və görüşlərdə də müzakirə olunub. Xatırladaq ki, müsahibəsində Prezident alimləri, ölkə ziyalılarını milli ideya və ölkənin gələcəyi barədə diskussiyalara dəvət etdi və vurğuladı ki, yeni ideyalar, yanaşmalar axtarıb tapmaq lazımdır, təkcə tarixə qapılmaq olmaz, zira Qələbədən sonra yeni inkişaf mərhələsi başlayır. Prinsipcə, AMEA-da, ölkənin bəzi elm mərkəzlərində həmin mövzu üzrə artıq bir neçə maraqlı müzakirə keçirilib, daha sonra isə məqalələr, kitablar yazılacaq. Artıq müəyyən materiallar toplanıb və bizcə, onları işləyib anlamaq, dərk etmək lazımdır. İlk növbədə, araşdırmaların aşağıdakı məcralarda aparıldığı artıq nəzərə çarpır: milli ideya və ideologiyanın gerçək nisbəti necədir, hansı ideya milli Azərbaycan ideyasının əsasını təşkil edə bilər, Qələbə cəmiyyəti necə dəyişdirir və yeni məqsədlərə necə yönəldir, milli ideya Cənubi Qafqazın yeni geosiyasəti və Türk Dövlətləri Təşkilatı ilə necə bağlıdır və s.

Lakin əvvəlcə milli ideyanın özlüyündə toplumun idarə edilməsi, təsir və tətbiq nəzəriyyəsi və təcrübəsi (praktikası) olduğu barədə. Heç də hər şey hökmən nəzəriyyədən başlamalı, sonra isə təcrübə və tətbiqə keçilməli deyil. Əlbəttə ki, idarəetmə realiyalarının və çağırışları cavablandırma zərurətinin şərtləndirdiyi tələblərlə bağlı məsələlər vardır və onlar öz həllini gözləyir. Əslində, Azərbaycan Prezidenti Qələbə çalmış bir ölkənin Lideridir və o, millətin, toplumun hansı istiqamətdə inkişaf etməli olduğunu çox gözəl bilir və bunu həm cəmiyyətə, həm də bu istiqamətlə maraqlananlara, öz tərəf-müqabillərinə, müttəfiqlərinə bəyan edib, həmin istiqamətlər onun rəqiblərinə də məlumdur. Bundan çıxış edərək, biz milli ideyanı şərti olaraq daxili və xarici sahələrə ayıra bilərik. Fəqət onların hər ikisi müəyyən bir vəhdət təşkil edir, sanki qarşılıqlı surətdə bir-birini müəyyənləşdirir, identikliyin inkişafında sonrakı qərarların qəbul edilməsinə təsir göstərir.

Milli ideya həm də cəmiyyətin şüurudur, bu, həm də onun xasiyyətinin ən müsbət cəhətlərindən faydalanaraq və artıq tükənmiş cəhətləri məhdudlaşdıraraq, onu necə uğurla idarə etmək barədə bilikdir (bəlkə də əməli bilik). Söhbət azərbaycanlıların kollektiv şüurundan, mentalitetindən, xasiyyətindən gedir. Son illərin tarixi göstərir ki, ölkə onun lideri olanda uğur qazanır. Bu, Heydər Əliyevin dövründə də belə idi, indi də belədir. Bunun bütün ölkələrdə bu cür olduğunu iddia edə bilmərik. Amma Avropa və ABŞ-ın cari problemləri müasir cəmiyyətlərdə liderlik məsələsinin həllində qüsurların olduğundan xəbər verir. Beləliklə, milli ideya güclü liderin, güclü dövlətin idarəetmə təcrübəsində təşəkkül tapa bilər. Llliderin zəif olduğu halda, görünür, ölkə problemlərinin həllində əsas yük kollektivin, partiyaların, aparatın, “dərin dövlət”in, elitanın üzərinə düşür. Başqa sözlə, lider güclü olanda, dövlət də qüvvətli olur. Hərçənd, biz başqa ölkələrin tarixindən bilirik ki, zəif liderlərin hökm sürdüyü dövrlər də olur. O zaman, əlbəttə, çox şey siyasi qurumların bu çağırışa etiraz etmək, mü-

qavimət göstəmək bacarığından asılıdır. Bizdə keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində belə bir dövr olub və o zaman xalqımız Heydər Əliyevi hakimiyyətə çağırdı və biz bu yolla həmin dövrün çağırışlarına cavab verə bildik. Bu cür kontekstdə aydındır ki, milli ideya nəzəriyyəsinin, vətəndaşların onun müzakirəsinə cəlb edilməsinin və nəhayət, onu izah edəcək və onun bütün əhali, o cümlədən, siyasətçilər, gənclər və gənc nəsillər və s. tərəfindən başa düşülməsinə nail olacaq ideologiyanın mövcud olması labüddür.

Milli ideya bu və ya digər toplumun tarixi və yaddaşından, insanların kollektiv və fərdi yaddaşından, ölkənin geosiyasi mövqeyindən asılı olaraq müxtəlif təsir bağışlayan və fərqli surətdə anlaşılan ideyadır, o, cəmiyyətin şüurundan asılıdır və buna görə də təhsil, elm, mədəniyyət, ailə, iqtisadi və siyasi sahədə fəaliyyətlə vahid sistemdə birləşmişdir. Kimsə deyə bilər ki, bu, bizim həyatımızı təşkil edir. Görünür, bu, həqiqətən də belədir, ancaq həmin ideya tənəzzülə deyil, tərəqqiyə gətirib çıxardığı təqdirdə. İnkişaf – rəqəmlər, yüksək həyat səviyyəsidir, hərçənd həm də necə inkişaf etmək, hansı dəyərləri seçmək və s. lazım olduğunun dərk edildiyi deməkdir. Bəzi Avropa ölkələri çox yaxşı yaşayır, fəqət Aİ tərkibində millətlər özgünlüyünü, mentallıq keyfiyyətini, yəni onları keçmişdə fərqləndirən xüsusiyyətlərini itirir. O zamanlar onların Hegel və Kantı, Şopenhauer və Nitsşesi var idi. Bəs indiki Almaniyanın filosofları kimdir? Onun siyasi həyatında sağçılar güvvətlənir, islamofobiya ("İslam qorxusu") xeyli artıb, çoxları ailədə baş verənlərdən, adət-ənənələrin, ailə dəyərlərinin və bir çox şeylərin itirilməsindən narazıdır. Bəzi buna oxşar proseslər Fransada da gedir.

Fikrimizcə, Avropa ölkələri, hər halda, onların bəziləri, milli identikliyin itirilməsi və ya nə isə yeni bir Avropa kimliyinin formalaşması ilə üzləşmişdir. Bu, əsasən, Aİ-nin təşəkkülü ilə bağlıdır, lakin təkcə bununla deyil. Zənn edirik ki, inteqrasiya həmişə milli identikliyə təhlükə və təhdidlər yaradır, fəqət onun itirilməsi təkcə müəyyən səhv qərarlar qəbul edildikdə gerçəkləşir. Birləşmiş Avropanın yeni dövlət formasının, yeni bürokratiyanın yaranması milli bürokratiya, milli mədəniyyət və s. keyfiyyətinin zəifləməsi ilə nəticələndi. Biz icə, bu prosesdə ABŞ da öz rolunu oynayıb. Diqqət yetirək ki, F. Fukuyama «Идентичность: Стремление к признанию и политика неприятия» (2019) kitabında liberal Amerika düzənini layiqli identiklik hesab edir, onun fikirincə, başqalarında isə o, saxta və zərərli, xətərlidir, zira insan hüquqlarına əsaslanmır. Qeyd edək ki, bütün özgünlüyünə rəğmən, milli identlikliyə can atmağımızı boğa bilməyən sovet inteqrasiyası hələ xatirimizdədir. Onu da vurğulayaq ki, Ümummilli Liderimiz Heydər Əliyev hələ ilk sovet dövründə də milli inkişafa, iqtisadiyyata, ziyalılara və s. hər cür imkan yaradır, kömək göstərirdi.

Burada fəlsəfə və şüur nəzəriyyəsinin milli ideya və ideologiyanın inkişafında hansı rolu oynadığına diqqət yetirmək vacibdir. Söhbət ondan gedirki, Fukuyama və bir çox Qərb sosioloqları kollektiv şüurun cəmiyyətin hər bir üzvünün şüuru olduğundan çıxış edirlər, fəqət buna başqa bir yanaşma da vardır və ona əsasən, kollektiv şüurla yanaşı, fərdi şüur da mövcuddur, onların arasındakı münasibətlər isə heç də birmənalı deyil və hər bir mədəniyyət çağırışlara, kollektiv və fərdi şüur arasındakı qarşılıqlı münasibətlərə öz cavabını verir. Belə olan halda, tarixi yaddaşın və mifologiyanın ermənilərі, onların əsil taleyini, məğlubiyyətini və bu fəlakətdən qurtuluş axtarışının çətinliklərini müəyyən etmiş təcavüzə təhrik edərək, hayların şüurunu özünə necə tabe etdiyi aydın olur.

Bəziləri əmindir ki, ideya – gənclərdə, keyfiyyətli təhsildə, yeni tipli universitetlərin, məktəblərin lazım olmasındadır. Elədir ki, var, bəli, Prezidentimiz Qarabağda Universitet yaradılması təşəbbüsünü irəli sürüb. Amma məsələ yalnız Universitet açmaqda, elmi inqilab etməyə istiqamət almaqda, süni intellektin inkişafında deyil, onların bilik və dəyərləri, vətənpərvərlik və vətəndaşlığı özündə necə ehtiva etməli olmasıdır. Axı bu gün dünyada tamamilə fərqli nəsnə üstünlük təşkil edir. Keyfiyyətli təhsil almaq, sonra ABŞ-da, Avropada iş tapmaq. Yeri gəlmişkən, burada süni intellekt və bu sahədə tədqiqatların insan intellekti, dəyərləri, seçim azadlığı, etika və s. ilə necə əla-

qəli olduğunu xatırlamağın məqamıdır. Prinsipcə, həmin sahəyə aid biliklər bizə öz intellektimizi dərk etməyə, müasir biliyin və bir çox başqa şeylərin inkişaf yollarını müəyyənləşdirməyə və s. kömək göstərir. Biz anlamalıyıq ki, bu sahədə geri qalma subyektivliyimizin və gələcəyə olan perspektivlərimizin itirilməsinə səbəb ola bilər.

Etiraf etmək gərəkdir ki, ölkəmizin dünya üçün əhəmiyyət kəsb etməsi, bir tərəfdən, onların bizim imkanlarımıza marağını şərtləndirir, amma, digər tərəfdən, ola bilsin ki, onlar dövlətimizin zəifləməsini istərdilər ki, zəngin ehtiyatlarımıza yiyələnsinlər. Prezidentimiz və Qələbəmiz, əslində, bizim birlikdə ümid bəslədiyimizi bizə bəxş etdi. Bax elə məhz bu, yeni ideyanı dərketmə vasitəsidir. Bizə suverenlik, tərəqqimiz üçün böyük qayıdış lazımdır.

Və nəhayət, indi nəyin yeni və ya bizim onlara hələ alışmadığımız olduğunu qeyd etmək istərdik. Hazırda Azərbaycan-Ermənistan münasibətləri nə isə əlahiddə bir şey deyil, ümumi inkişaf prosesimizin tərkib hissəsidir. Təbii ki, buna görə də çoxları bizi zəiflətmək istərdi, məsələn, Fransa rəsmilərinin Azərbaycanofobiyası əndazədən çıxmağa başlayıb, yəni Qafqazda yaranmış yeni vəziyyət onlara əl vermir, bizi isə qane edir. Ehtimal ki, biz yeni şəraitdə yaşamağa hazırlaşmalıyıq, ona görə də türk dövlətlərinin birliyindən, uğurlu tərəqqimizdən, qüvvətli, möhkəm birliyimizdən çox şey asılıdır. Prezident İlham Əliyev bu haqda danışır: o, 14 fevralda andiçmə mərasimində çıxış edərkən Türk Dövlətləri Təşkilatını nəzərdə tutaraq "Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" demiş və bununla "Türk Dövlətləri ailəsi" ifadəsini dövriyyəyə daxil etmişdir. Düşünürük ki, bu istiqamət Azərbaycan Prezidentinin çox düzgün strateji resursudur və onu davam və inkişaf etdirmək gərəkdir. Burada qeyd etmək yerinə düşərdi ki, Qələbədən sonra milli ideya, gördüyümüz kimi, çox mürəkkəb konstruktdur və onu anlatmaq, izah etmək, bəlkə də onun xüsusunda müəyyən yenilikləri üzə çıxarmaq, ən yaxın gələcəyi proqnozlaşdırmaq üçün alimlər səy göstərməlidirlər. Bundan başqa, Prezidentimiz kommunikasiyaların açılması ilə bərabər "yaşıl energetika"nı, IV elmi inqilaba aparan prioritet iqtisadi layihə və əlaqələri də inkişaf etdirməyin gərək olduğunu bildirmişdir ki, bunun arxasında artıq V elmi inqilabın cizgi və ümumi şəkli görünür.

Bunu da vurğulayaq ki, milli ideyamız köhnə dünyadan yenisinə keçid şəraitində təşəkkül tapır və bu səbəbdən biz onun köməyi ilə fənaları aradan qaldırmalıyıq və bunun rəhni suverenliyimiz, güclü Liderimiz və onun həm yaxın, həm də uzaq gələcəkdə həll edilməli olan vəzifələri aydın dərk etməsidir.

### *Alim etikasının epistemoloji əsasları haqqında*

Kollektiv yaddaş və fərdi hafizə arasında qarşılıqlı təsir və əlaqə məsələsi toplumun kollektiv yaddaşı, mentallığı və şüurunun necə dəyişdiyini başa düşmək üçün əhəmiyyət kəsb edir. Elm, tarix və fəlsəfənin yaddaşa necə təsir göstərdiyinin təhlilinə müraciət etsək, onda yalnız tarixi-mədəni epistemologiya məsələlərinə deyil, həm də alim etikasına diqqət yetirmək lazım gələcək. Bir çox alimlər hələ də alim etikasını müəyyən növ fəaliyyətin icrasının əxlaqi prinsipləri, peşə etikası və s. kimi başa düşürlər, sanki söhbət alimin əmək fəaliyyətinin pozulması ilə bağlı olanlardan gedir. Bəziləri plagiatdan, məqalə və kitabların düzgün tərtibatından, müasir kommunikasiyalardan istifadə etməkdən bəhs edir. Şübhəsiz ki, müasir dövrdə bu məsələlər xüsusi əhəmiyyət kəsb edib. Lakin bununla belə, alimin etika sahəsinə, həmçinin onun həqiqətə, yalnız başqasının biliyini deyil, həm də özünün mövzuya yanaşmasını, metodologiyaya münasibətini necə yoxladığına müəyyən, sözün tam mənasında müasir, yəni indiki bilik səviyyəsinə uyğun münasibətin olması da daxildir. Vaxtı ilə M.Fuko "Maarifçilik nədir" məqaləsində tarixi epistemologiyanın öz elmi mövqeyinə yenidən baxılmasını mümkün hesab edən subyektindən bəhs edirdi. Bu isə artıq tamam başqa alim etikasıdır. Hərçənd, təbii ki, burada bunun üçün öz yanaşmamızın yenidən müəyyənləşdirilməsi, kökündən dəyişdirilməsi üçün ciddi əsaslar olmalıdır. Fəqət bu əsasları epistemologiya təmin edir. Həm də nəzərə almaq lazımdır ki, Fukonun daha sonrakı davamçıları

L.Daston, P.Qalison bunları aydınlaşdırmağı lazım sayırdılar ki, birincisi, söhbət təkcə ictimai deyil, bütövlükdə elmdən, ikincisi isə bilik nəzəriyyəsinin paradiqmal əsaslarının transformasiyasından gedir (*Lorraine Daston* and *Peter Galison* (2010) Objectivity, Zone Books, New York).

Məsələn, yaddaş təkcə mənəvi dəyər və kommunikasiya deyil, problemdir. Fəqət onun bioloji, tarixi, siyasi, elmi və fəlsəfi kontekst və aspektləri vardır. Hafizə haqqında mütləq bilik ola bilməz, lakin onun tədqiqatçılarının əksəriyyəti, məsələn, tarixçilər onu tarixi yaddaş, tarixin obyekti kimi başa düşürlər. Lakin o, tarixçinin tədqiqat obyekti olduqda tarixi biliklərlə məhdudlaşa bilmir, mədəniyyət fenomeni kimi o, bir çox başqa aspektlərə malikdir və bu, hər şeydən əvvəl, universal mədəni, siyasi, fəlsəfi gerçəklikdir ki, onsuz o, səmərəli surətdə tədqiq edilə bilməz. Belə olduqda, onun öyrənilməsi üçün vahid, bütöv və eyni zamanda obyektiv yanaşma zəruri olur. Problemin araşdırılmasının tamlığını keçmişlə yaddaşın necə əlaqələndirilmiş və alimin yanaşmasının nə dərəcədə obyektiv və effektiv, proqnozlaşdırıla bilən olması, yaddaş və keçmiş haqqında biliklərin nə cür tamamlanması, bu biliklərin necə yoxlanılması və şüur və praktikaya nə cür təsir göstərməsi barədə suallara cavab verən mədəni-tarixi epistemologiya təmin edir. Axı keçmiş barədə əsatirin yaddaşın üçün əsas kimi qəbul edərkən toqquşmanı, münaqişəni proqnozlaşdırmaq olar, onların həllini isə yox.

Bu məsələlər son dövrdə yazdığımnız bəzi kitab və məqalələrimizdə təhlil olunur və onların arasında «Философия о современности, истории и культуре (О контурах историко-культурной эпистемологии), Баку, 2020 – "Fəlsəfə müasirlik, tarix və mədəniyyət haqqında (tarixi və mədəni epistemologiyanın konturları barəsində, Bakı, 2020) kitabı və «Pandemiya dövrundə fəlsəfə və Lütfüzadənin qeyri-səlis məntiqi» (Вакı, 2021) kollektiv monoqrafiyasını qeyd etmək istərdik. Aydındır ki, həmin əsərlərdə biz onu kollektiv yaddaş və identikliyin təhlilinə tətbiq edərək onun inkişaf etdirilməsi, təkrar yoxlanılması və dərinləşdirilməsinin zəruri olduğu mədəni-tarixi epistemologiyanın yalnız müəyyən məsələləri dairəsini ümumi şəkildə təsvir edirik.

Beləliklə, yaddaş kollektiv identikliklə bağlı olan mövzu və problemdir, indi isə süni intellektlə də əlaqələndirilmişdir və onun bu kontekst və aspektlərini müəyyən və tədqiq etməsək, bu haqda düşüncələrimiz məhdud olacaqdır. Koqnitiv elmlərə aid biliklər əlavə olaraq fəlsəfə və epistemologiyaya yaddaş haqqında yeni məlumatları, ictimai anlayış və araşdırmalarda beyin, intellekt, şüur və yaddaşın əlaqələri barəsində biliklərin xüsusiyyətləri ilə bağlı olanların təzahürünün spesifikasını üzə çıxaran istiqamətləri cəlb edir. Onu da nəzərə almaq gərəkdir ki, yaddaşın bəsitləşdirilmiş təfsiri alim etikasının mahiyyətinin, onun necə fəaliyyət göstərdiyinin və nə üçün təkcə prinsipləri deyil, həm də fəaliyyət növünə yanaşmalarını dəyişdirməli olduğunun təhlilini çətinləşdirir. Alim etikası o cümlədən – varlığının bizim istədiyimiz kimi olan deyil, ölçülən və mövcud olan, bütün ziddiyyət və yanlışlıqları ilə birlikdə varlıqda bulunandır. Buna görə də hazırkı şəraitdə dəqiq elmlərin nümayəndəsinin tarix, fəlsəfə və mədəniyyətə aid bilikləri mütləq nəzərə almalı olduğu kimi, ictimai elmlərdə alim etikası yalnız bu elmlərlə məhdudlaşa bilməz. Müasir elm yalnız tədqiqat deyil, həm də təsir və idarəetmədir (7).

Epistemologiya yaddaş, keçmiş haqqında fərqli bilik və təsəvvürlərin toqquşması və keçmişin kollektiv şüurda rolu haqqındakı problemləri araşdırarkən, belə deyək, daha dolğun bilik əldə etmək üçün, öz növbəsində, riyazi, qeyri-səlis məntiqdən istifadəni nəzərdə tutan fənlərarası tədqiqatlardan istifadə etməyə borcludur. Başa sözlərlə, tarixdə, tarixi idrakda məntiqdən istifadə etmək zəruridir. Lakin burada biz Azərbaycan fəlsəfəsində amerikalı alim həmyerlimiz Lütfizadənin qeyri-səlis məntiqindən ictimai proseslərin təhlilində istifadə etdiyimiz zaman rastlaşdığımız bir problem meydana çıxır. Bizim mütəxəssisləri onun tətbiqi deyil, məntiqin özü maraqlandırır. İndiki şəraitdə yaddaş tədqiqatlarının tətbiqi xarakteri hər hansı digər yanaşmalardan daha vacibdir.

Keçmişi dərk etmək üçün tarixi mədəniyyətin bir hissəsi, özü də fəlsəfənin obyekti ki-

mi başa düşmək və tədqiq etmək lazımdır, çünki fəlsəfəsiz mədəniyyət tam və natamam, tolerant və dözümsüz və s. ola biləcək təfəkkür və şüur tipləri, kültür haqqında biliklər dəsti deyil, adətən, din, dil və adət-ənənələrin yığını kimi qavranılır. İdentiklik mədəniyyətimiz və onun haqqındakıl təsəvvürlərimiz bir-birindən fərqlənə bilər, eyni ilə başqa xalqların, məsələn, yaxın və uzaq qonşularımızın kimliyi və keçmişi biliklərə yox, yanlış təsəvvürlərə və əsatirlərə əsaslanmış ola bilər. Burada “yaddaş müharibələri”nə və ya hətta əsl müharibələr və təcavüzlərə gətirib çıxara bilən və ya biləcək bir çox problemlər meydana çıxır.

Tarix, keçmiş və yaddaşı, adətən, çoxları yalnız siyasətlə bağlı bir sfera kimi başa düşür. Bu təqdirdə o, reduksiya olunur, bəsitləşdirilir, maraqların, iradələrin, sivilizasiyaların və mədəniyyətlərin toqquşmasına müncər edilir. Əlbəttə, hər bir həqiqi sivilizasiyanın həm də mədəniyyət və mədəniyyətlərin qarşılıqlı təsir tarixi olduğunu nəzərə almayaraq mədəniyyətlərin bütöv tarixini toqquşmalar kimi qələmə vermək olmaz. Bizcə, mədəni-tarixi epistemologiya yaddaşın ayrı-ayrı hadisələrə, tarixi faktlara reduksiya edilməsinin, keçmişin elmi izahının əvəz olunmasının və tarixi-mədəni yaddaşa bəsitləşdirilmiş yanaşmaların səbəblərini başa düşməyə imkan verir. Bizim fikrimizcə, yaddaşın, keçmişin tədqiqi və dərki üçün sənədlərin, arxivlərin, materialların və kitabxanaların bütün əhəmiyyətinə rəğmən, tarix və mədəniyyətə bütöv, vahid yanaşma, həqiqətin nisbiliyinin və təfəkkür paradiqmalarının, tiplərini dəyişməsi mövcudluğunun dərkinin – bunlar alim tərəfindən kollektiv yaddaşa konseptual yanaşmanın mümkünlüyünü müəyyən edir – təsdiqi kimi epistemologiya heç də bundan az əhəmiyyət kəsb etmir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Fukuyama F. “İdentriklik: tanınma səyi və qəbul etməmə siyasəti”, M. “Alpina Publisher”, 2019, səh.35
2. Məmmədzadə İ.R. “Fəlsəfə haqqında. Müasir yanaşmalar, tendensiyalar və perspektivlər” Bakı, 2011
3. Məmmədzadə İ.R., A.A.Büniyatov “Milliliyin, milli özünüdərkin qeyri-səlis məntiq kontekstində epistemoloji xususiyyətləri”, Bakı, “Elm və Təhsil”, 2023-cü il
4. Nikolaev D.Y. Elmi rasionallıq tiplərinin psixoloji konsepsiyası. 1-ci hissə Fəlsəfə məsələləri, № 10, 2022
5. Nikolayev D.Y. İdeal obyektlər və rasionallıq tipləri Fəlsəfə məsələləri, № 10, 2022
6. Yenə orada, «Вопросы философии», № 10, 2022. səh.124
7. Пирожкова С.В. «Образ будущего и сценарии развития науки как культурного феномена» // «Вопросы философии», №6, 2022, с. 87- S.V. Pirojkova. “Gələcəyin obrazı və elmin inkişaf ssenariləri mədəni fenomen kimi”// “Fəlsəfə məsələləri”, No 6, 2022, səh. 87.
8. Розин В.М. «Методология: историческое понимание и новый старт»// «Вопросы философии», №12, 2023, с.103 – Rozin V.M. “Metodologiya: tarixi anlayış və yeni start”//“Fəlsəfə məsələləri”, No 12, 2023, səh. 103.


**Rəyçi:** **Fəlsəfə eləmləri doktoru Dilarə Müslümzadə**

**Göndərilib: 07.03.2024** **Qəbul edilib: 13.03.2024**